**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**YUSiF ƏSGƏR OĞLU ƏLİYEV**

# ERNEST HEMİNQUEYİN YARADICILIĞINDA İNSANIN BƏDİİ DƏRKİ

5718.01 – Dünya ədəbiyyatı (Amerika ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# AVTOREFERATI

**NAXÇIVAN - 2013**

Dissertasiya Naxçıvan Dövlət Universitetinin “Jurnalistika və dünya ədəbiyyatı” kafedrasında yerinə yetirilmişdir

**ELMİ RƏHBƏR:** AMEA-nın həqiqi üzvü,
filologiya üzrə elmlər doktoru, professor
**İsa Əkbər oğlu HƏBİBBƏYLİ**

**RƏSMİ OPPONENTLƏR:** Filologiya üzrə elmlər doktoru, professor
**Zeydulla Abdulla oğlu Ağayev**

Filologiya üzrə elmlər doktoru
**Hüseyn Məmməd oğlu Həşimli**

**APARICI TƏŞKİLAT:** **Bakı Dövlət Universitetinin**
**Dünya ədəbiyyatı” kafedrası**

**Müdafiə** “27_” 04__ 2013-ci il saaat __-də Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD.02.121 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**ÜNVAN:** AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi, Əsas bina, Böyük Akt zalı.

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat “ ” 2013-cü il tarixində göndərilmişdir.

**FD.02.121 DİSSERTASİYA**
**ŞURASININ ELMİ KATİBİ:** **dos. İ.Z.Cəfərov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Böyük Amerika yazıçısı Ernest Miller Heminqueyin (1899-1961) yaradıcılığının öyrənilməsi bir neçə baxımdan aktualdır. Fikrimizcə, XX əsrdə Amerika ədəbiyyatında ən qızğın mübahisə insan haqqında idi. Bu dönəmdə insan təkrar yada düşmüş, onun ən acı və ağır vəziyyətlərdə nələrə qadir olması araşdırma obyektinə çevrilmişdi. Təsadüfi deyil ki, bu dövrün nəsr nümunələrində də bu qızğın mübahisənin izləri mövcuddur. İnsan, onun taleyi və gələcəyi ilə bağlı səhnələr elə gərginliklə təsvir edilirdi ki, nəticədə nəsr əsərlərinin janr poetikası, təhkiyə və digər sistemlərində yeni çalar və nüanslar meydana gəlirdi və bunlar ümumilikdə nəsrin poetika sisteminin yenilənməsinə səbəb olurdu. Heminquey nəsrinin poetikasında artıq tədqiqatçıların yekdillikdə qeyd etdikləri "mətnaltı prinsip"[1] bu qızğın müzakirələrin həm məhsulu, həm də açdığı bir iz idi. Təcrübə göstərir ki, ədəbiyyatda hər hansı problem ətrafında mübahisə cəmiyyətin böyük bir qismini əhatə etdikdə və nəticə etibarı ilə ədəbiyyat cəmiyyətə qarışdıqda bundan onların hər ikisi – həm toplum, həm də ədəbiyyat qazanır.

Ernest Heminquey ədəbiyyata gəlişi ilə o dövrdə Amerikada mövcud olan ədəbi mühitin hududlarını genişləndirdi. Onun hekayələrindən tutmuş iri həcmli romanlarına qədər hər bir əsərində hər şeydən öncə geniş bir üfüq mövcuddur – insanın çəkdiyi məşəqqət incə ştrixlərlə parlaq şəkildə rəsm edilir. Heminqueyin məhşur əsəri "Qoca və dəniz" bu ideyanı bütün cəhətləri ilə nümayiş etdirən bir bədii mətn nümunəsidir.

Ernest Heminquey kimi yazıçıların bədii irsinin insan problemi ətrafında araşdırılması tarixi əhəmiyyət kəsb edir.

Texnologiyalar dəyişsə də, insanın xisləti dəyişmir. Ədəbiyyatın gəldiyi qənaət budur ki, axıra qədər əclaf, yaxud mükəmməl insan yoxdur, insan əslində mübarizədə, həyatda, gerçəkliyin ağır və dözülməz sınaqları qarşısında doğulur. Heminquey irsinin araşdırılması həm də bu baxımdan – sürətlə dəyişən dünyada klassik nəsr ənənələrinin təkamülünü izləmək yönündən aktualdır.

---

[1] Heminqueyin bəyan etdiyi "aysberq prinsipi". Bu prinsipə uyğun olaraq, mətndə mənanın onda bir hissəsi ifadə edilməlidir, doqquzda bir hissəsi isə mətnaltında olmalıdır. «Aysberq prinsipi»ni yazıçı özü belə təsəvvür edirdi ki, əsərin bədii mətni suyun səthində görə bildiyimiz aysberqə bənzəyir. Yazıçı oxucunun gücünə arxalanaraq mətnaltından və eyhamdan geniş şəkildə istifadə edir.

Bu araşdırmanın aktuallığı E.Heminqueyin yaradıcılığının küll halında insanın bədii dərki baxımından sistemli analizi zərurətinin olması ilə müəyyənləşir. Heminqueyin yaradıcılığında qəhrəman probleminə müraciət edilməsi bütövlükdə E.Heminqueyin nəsr poetikasında artıq vaxtı keçmiş qiymətləndirmələrə yeni münasibətlə bilavasitə əlaqədardır.

**Dissertasiyanın tədqiqat obyekti və predmeti**. Ernest Heminqueyin "Fiesta", "Əlvida, silah!", "Əcəl zəngi", "Qoca və dəniz" və digər roman və hekayələri tədqiqatın obyektini təşkil edir. Tədqiqatın predmetini Ernest Heminquey yaradıcılığında insanın sosial fəaliyyətinin bədii inikası, insanın əxlaqi-mənəvi dəyərlərə münasibəti, "kiçik insan" problemi, sosial-siyasi hadisələrin və mövcud ədəbi təcrübənin Ernest Heminqueyin yaradıcılığına təsiri, habelə Heminquey yaradıcılığında müharibə mövzusu təşkil edir.

**Dissertasiyanın məqsədi** yazıçının təkrarsız bədii dünyasını öyrənmək istiqamətində geniş imkanlar açan insanın analiz edilməsidir.

Tədqiqat zamanı qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

• Ölkə ədəbiyyatşünaslığında və ədəbi tənqiddə E.Heminqueyin yaradıcılığında insanın bədii dərki məsələsinin tarixini izləmək.

• E.Heminqueyin əsərlərini onun müasirləri olan yazıçıların qaldırdıqları ideyalar kontekstində nəzərdən keçirmək.

• Heminqueyin yaradıcılığında qəhrəmanın təkamülünü izləmək (ilk hekayələrindən son romanlarına qədər).

• E.Heminqueyin vəfatından sonra dərc edilən əsərlərini əhatəli şəkildə tədqiq etmək. Heminqueyin insan konsepsiyasının dinamikasını izləmək, bunun əsərin süjet, kompozisiya, üslubuna təsirini təhlildən keçirmək.

**Dissertasiya işinin elmi yeniliyi** milli ədəbiyyatşünaslıqda ilk dəfə olaraq Ernest Heminquey yaradıcılığının sistemli yanaşma əsasında araşdırılması ilə bağlıdır. İndiyə kimi Amerika yazıçısı Ernest Heminqueyin həyatı, şəxsiyyəti və yaradıcılığı ən müxtəlif aspektlərdən nəzərdən keçirilmişdir. Bu yöndə çap edilən elmi-tədqiqat əsərləri az qala böyük bir kitabxana qədərdir. Buna imkan verən faktor, şübhəsiz ki, nasirin yaradıcılığının spesifikası, burada qaldırılan ümumbəşəri problemlərdir. Buna baxmayaraq, Ernest Heminquey yaradıcılığının tədqiq edilən yönləri bir o qədər də müxtəlif və çoxcəhətli deyildir. Bir sıra tədqiqatçılar onun nəsr yaradıcılığını dəfələrlə eyni yöndən öyrənmişlər. Aradan keçən illər ərzində Ernest Heminqueyin poetikasının araşdırılmasında elə bir durum yaranmışdır ki, meydana çıxan nəticələr düzgün metodologiya əsasında ümumiləşdirilməlidir. Bu məqsədlə, nasirin yaradıcılığını sistemli təhlilə

cəlb etmək qaçılmaz və labüddür. Bu tipli tədqiqat isə hər hansı təcrübənin ən ümdə, ən qabarıq cəhətlərinin dəqiq meyarlar əsasında sistemləşdirilməsini tələb edir. Elmi yenilik adına qeyd ediləcək başqa bir mühüm cəhət dissertasiyada bədii mətnin analizinə yanaşmanın xüsusiyyəti ilə bağlıdır. Belə ki, Heminquey nəsrinin ideyaları tədqiqata cəlb edilən əsərlərin məzmunundan deyil, onların kompozisiya (süjet və kompozisiya poetikası) daxilində həllindən irəli gəlir. Bu şəkildə yanaşdıqda, məsələn, "Qoca və dəniz" əsəri həm də insanın özü-özü ilə savaşı kontekstində nəzərdən keçirilir.

**Tədqiqatın metodologiyası.** Ədəbi-tarixi tədqiqat üsulu təşkil edir. Dissertasiyada təhlillər zamanı sosioloji, tarixi-müqayisəli və tarixi-tipoloji metodlardan da istifadə olunmuşdur. Həmçinin ədəbi-nəzəri fikrin istinad etdiyi analitik təhlil metodlarına müraciət etməklə elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Bu tədqiqat işi ədəbiyyatda insanın bədii dərki kimi fundamental məsələni öyrənmə baxımından mühüm nəzəri əhəmiyyət kəsb edir. Heminqueyin yaradıcılığında insanın bədii dərki problemini tədqiq edən bu dissertasiyanın bir sıra elmi nəticə və qənaətləri dünya ədəbi prosesinin bir sıra yaradıcılıq problemlərinin aydınlaşdırılmasında mühüm rol oynaya bilər. Tədqiqatın nəticələri dünya ədəbi prosesi və tarixinə dair ölkəmizdə dərsliklərin, dərs vəsaitlərinin yazılmasında, orta və ali məktəb dərsliklərinin, tədris proqramlarının, metodik vəsaitlərin hazırlanmasında yararlı ola bilər. Bu dissertasiyadan ali məktəblərin filologiya fakültələrində müvafiq kursların tədrisində dərs vəsaiti kimi də faydalanmaq mümkündür.

**Dissertasiyanın aprobasiyası**. Dissertasiyanın mövzusu Naxçıvan Dövlət Universitetinin «Jurnalistika və dünya ədəbiyyatı» kafedrasında müəyyənləşdirilmiş, Naxçıvan Dövlət Universitetinin Elmi Şurasında təsdiq edilmişdir. Dissertasiyanın əsas məzmunu, elmi müddəa və nəticələri iddiaçının müxtəlif elmi məcmuə və jurnallarda çap etdirdiyi məqalələrdə, elmi-praktik konfranslarda məruzə və tezislərdə, dövri mətbuat səhifələrindəki yazılarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi,

metodologiyası, öyrənilmə səviyyəsi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılır, işin aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın “**E.Heminqueyin yaradıcılığının tədqiqi məsələləri**” adlı I fəsli üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə E.Heminqueyin yaradıcılığının Amerika ədəbiyyatşünaslarının tərəfindən hansı yöndən tədqiq edilməsi araşdırılır.

M.Mendelsonun Heminquey haqqında tədqiqatlarında XX əsr Amerika ədəbiyyatında, o cümlədən Heminqueyin nəsrində insanın bədii dərki məsələsi həmçinin araşdırılır.

E.Heminquey yaradıcılığının müxtəlif dövrlərinin, xüsusən onun bədii dünyasının öyrənilməsi Ç.Fentonun “Heminqueyin şagirdlik illəri, uşaqlıq illəri” əsərində işıqlandırılır. K.Beykerin “Yazıçı sənətkarlığı”, İ.L.Finkelşteynin “Heminquey romanı. 20 və 30-cu illər”, Y.Y.Lidskinin “Heminqueyin yaradıcılığı” və sair əsərlərdə də E.Heminquey yaradıcılığının problemləri dəyərləndirilir.

Amerika ədəbiyyatşünaslarının E.Heminqueyin yaradıcılığında insan probleminə həsr etdikləri əsərləri keçən əsrin 80-90-cı illərində işıq üzü görmüşdü. Onlar bir qayda olaraq bioqrafik metoda əsaslanırlar: C.Meytersin, K.Linnanın, C. B. Nelsonun və H.Consun, B.A.Qilensonun əsərləri bu qəbildəndir. Məhz bu tədqiqatların sayəsində meydana çıxan bəzi yeni faktlar və yeni yanaşma üsulları E.Heminqueyin yaradıcılığını yeni baxış bucağından tədqiq etmək imkanı yaradır.

Digər mühüm tədqiqatlar içində aşağıdakı araşdırmaları da qeyd etmək vacibdir. K.Beykerin “Ernest Heminquey:həyat hekayəsi” A.Zverevin “20-30-cu illərdə Amerika romanı”, R. Stol-Mənin “Ceymzin tikdiyi evlər və digər ədəbi tədqiqatlar”, L. Başmakobanın “Melvill və E.Heminquey: ənənə məsələlərinə dair”, (“Amerika ədəbiyyatı” kitabında romantizm və realizm məsələləri, T.Belovanın “E.Heminqueyin üslubu” və sair əsərlər E.Heminqueyin yaradıcılığının müxtəlif problemlərinə həsr edilmiş tədqiqatlardır.

**Dissertasiyanın I fəslinin ikinci yarımfəsilində E.Heminqueyin yaradıcılığının rus ədəbiyyatşunasları tərəfindən hansı yöndən tədqiq edilməsi araşdırılır.**

Rusiyada E.Heminqueyin bədii yaradıcılığı bütöv bir tədqiqatçı nəsli tərəfindən araşdırılmışdır. B.T.Qribanovun “İnsana qalib gəlmək mümkün deyildir” adlı əsərində E.Heminqueyin “Fiesta”, “Əlvida, silah!” və “Qoca və dəniz” əsərləri əhatə edilir. Rus tənqidçisi və tərcüməçisi İvan Aleksandroviç Kaşkin də Heminquey poetikasının müxtəlif məsələlərini araşdırmış, yazıçının müxtəlif nəsr nümunələrində insanın hansı yöndən

öyrənilməsi, əldə edilən təcrübənin hansı şəkildə işlənməsi məsələlərinə diqqət yetirmişdir. O, Heminqueyin poetikasında təhkiyə, süjet, janr və forma xüsusiyyətlərini ardıcıl şəkildə izləmişdir.

Yuxarıda adları çəkilən tanınmış ədəbiyyatşünaslarla yanaşı, E.Heminqueyin yaradıcılığı haqqında bu günə qədərdə söz deyilir, araşdırmalar aparılır. Ona görə də bu yaradıcılığın tədqiqi məsələlərində zaman problemi heç zaman müşahidə edilməmişdir. E.Heminqueyin yaradıcılığı hər bir yeni ədəbiyyatşünaslar nəslini özünə çəkir. Onlardan birinin – Abrosimova Valeriya Nikolayevnanın "E.Heminqueyin kitablarının janr özəllikləri" əsəri yazıçının bədii irsinin öyrənilməsində ciddi addım sayılmalıdır.

**Birinci fəslin üçüncü yarımfəsilində Ernest Heminquey yaradıcılığının Azərbaycan ədəbiyyatşünaslığında tədqiqi, tərcüməsi və nəşri məsələlərindən bəhs edilir.** Akademik İsa Həbibbəyli "Ernest Heminquey bədii irsinə böyük maraq və Azərbaycan" adlı məqaləsində yazır: "Məlumdur ki, Ernest Heminquey dünyada tanınan məşhur, görkəmli Amerika yazıçılarından biridir.

Azərbaycanda da Ernest Heminqueyin əsərlərinə və ideallarına son 70 ilə yaxın bir dövr ərzində ciddi maraq bəslənmişdir". [1]

Ernest Heminqueyin əsərləri Azərbaycan dilinə əsasən rus dilindən tərcümə edilib.

Azərbaycanda Cəlal Məmmədovun (1918-1983), İslam İbrahimovun (1922-1985), Cabbar Məcnunbəyovun (1912-1967) Ernest Heminqueydən etdikləri tərcümələr (Cəlal Məmmədovun tərcüməsində "Qoca və dəniz" povesti, İslam İbrahimovun tərcüməsində "Körpü başında qalmış qoca" hekayəsi,
Cabbar Məcnunbəyovun tərcüməsində "Milad bayramı hədiyyəsi" publisistik oçerki) indi də ciddi mütaliənin predmetini təşkil edir.

Azərbaycan oxucularının həmişə böyük maraqla mütaliə etdiyi "Əlvida, silah" romanını dilimizə görkəmli mütərcim Hacı Hacıyev tərcümə edib. Adı çəkilən tərcüməçinin təqdimatında İspaniya müharibəsinə həsr edilən "Əcəl zəngi" romanı da maraqla qarşılanır. Tərcüməçi İsmayıl Şükürov Ernest Heminqueyin "Körpü başında bir qoca" hekayəsini orijinaldan tərcümə etmişdir. Ədəbi prosesdə bir sıra ciddi yazıları ilə seçilən filologiya üzrə fəlsəfə doktoru, professor Niyazi Mehdinin və filologiya üzrə fəlsəfə doktoru, tanınmış tərcüməçi Zeydulla Ağayevin ingilis dilindən etdikləri tərcümələri böyük maraq doğurur.

*1İsa Həbibbəyli,. Ədəbi tarixi yaddaş və müasirlik, Bak:, Nurlan, 2007, s. 530*

Heminqueyin ən maraqlı hekayələrindən olan "Yağış altında pişik", "Təmiz, işıqlı bir yer idi", "Bir günün intizarı", "Hindu koması" hekayələrinin tərcüməsi bir də onunla əlamətdardır ki, bu hekayələr Heminquey poetikasının sistemini müəyyən bucaq altında göstərmək qüdrətinə malikdir.

Səkinəxanım Vəliyevanın müdafiə etdiyi "Ernest Heminquey və Azərbaycan" adlı namizədlik dissertasiyası, Səidə İsmayılovanın "Ernest Heminqueyin yaradıcılığında sosial və tarixi kolorit" və Süsənbər Ağamalıyevanın "Ernest Heminquey və Şərq" adlı dissertasiyaları oxucunu düşündürən cəhətlərlə zəngindir.

Azərbaycanda Ernest Heminqueyə maraq təkcə nəşr və tədqiqat işləri ilə məhdudlaşmır. Naxçıvan Dövlət Universitetində 2002-ci ildə yaradılan Ernest Heminquey mərkəzi böyük Amerika yazıçısının şəxsiyyətinə və yaradıcılığına marağın təsdiqidir. Heminquey az qala bütün azərbaycanlıların gəncliyində oxuduğu, böyük zövq və ləzzət aldığı elə bir dahidir ki, onun Azərbaycan torpağında mərkəzinin yaradılması yazıçıya səmimi münasibətin və dərin məhəbbətin ifadəsidir. Naxçıvan Dövlət Universitetinin rektoru, akademik İsa Həbibbəyli 2003-cü ildə yazçının doğulduğu Oyk Park şəhərində onun adını daşıyan muzeyi ziyarət etmiş, Ernest Heminqueyin həyat və yaradıcılığının maraqlı dövrlərini arxivləşdirən son dərəcə maraqlı eksponatlarla tanış olmuş, Ernest Heminqueyin elmi-tədqiqat mərkəzində məruzə ilə çıxış etmiş və bu mərkəzin kitabxanasına "Əcəl Zəngi" romanının Azərbaycan dilinə çevrilmiş varinatını hədiyyə etmişdir[1].

**Dissertasiyanın II fəsildə "E.Heminquey yaradıcılığında insan konsepsiyası"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. "E.Heminquey yaradıcılığında insanın ictimai-siyasi və sosial fəaliyyətinin bədii inikası" adlı yarımfəsildə qeyd edilir ki, insanın sosial fəaliyyətinin bədii inikası əslində kompleks şəkildə öyrənilməli olan problemdir və bu məsələnin ədəbiyyat kontekstində dərindən öyrənilməsi, bədii obrazın spesifikası ilə bağlıdır. Çünki ədəbi mətnlərdə, xüsusən də bədii nəsr mətnlərində insanın sosial fəaliyyəti bədii obraz vasitəsi ilə açıqlanır. Bədii nəsr mətnlərində insan konsepsiyası bədii obraz müstəvisində spesifik şəkildə açıqlanmaqdan başqa, həm də yazıçının dünyaya baxışının müxtəlif konseptual tərəflərini ortaya qoyur.

---

*[1]S.Ağamalıyeva. Ernest Heminquey "Afrikanın yaşıl təpələri" kitabının təhlili. Naxçıvan Dövlət Universitetinin Xəbərləri. Naxçıvan: Qeyrət, 2010,s.60-64*

Ernest Heminquey bir sənətkar kimi insanı öyrənirdi, yaxud öyrənib əxz etdiklərini müvafiq insan obrazında təcəssüm etdirirdi. Bu bədii obrazları xülasə etməli olsaq, belə bir ilkin nəticəyə gələ bilərik ki, Heminqueyin insan anlayışı, yaxud insan obrazı bütün gücü, enerjisi bir nöqtəyə cəm edilmiş varlıq formasıdır və tədqiqatçıların artıq təsdiq etdikləri kimi, ona qalib gəlmək mümkün deyildir. Heminqueyin yaradıcılığında, məhz onun kəşf etdiyi bədii obrazda bütün ümumi keyfiyyətlər insanın genetik yaddaşından, ailəsindən irəli gəlirdi. Bir nəsildə, bir ailədə on illər boyu doğulan insanların qanında axan ehtiras, onların hiss və duyğuları bəzən hansısa fərddə ifadəsini tapır. Heminquey böyük, qlobal mövzulara müraciət edib "kiçik insan" problemini aşkarladı, kiçik insanın daxilində yatan nəhəng enerjini kəşf etdi. Fikrimizcə, bu, müəyyən mənada onun həyat tarixçəsi ilə bağlıdır.

Yazıçının bütün bu mənəvi axtarışlarının zirvəsi 1952-ci ildə qələmə aldığı "Qoca və dəniz" povestidir. Povest yazıçının həyat fəlsəfəsini tam şəkildə əks etdirir.

**İkinci fəslin ikinci yarımfəsilində E.Heminquey yaradıcılığında bəşəri dəyərlərin təsviri məsələsi araşdırılır.** Həmçinin E.Heminquey və onunla eyni vaxtda ədəbiyyata gələn nəslin tanınmış nümayəndələrinin qaldırdığı problemlərə münasibət ifadə edilir.

Qeyd edilir ki, yazıçı, heç bir formada ideallaşdırmadan sevimli qəhrəmanlarına simpatiya ifadə etməkdən çəkinmir. Heminquey təkcə alovdan deyil, bu alovu söndürməyə hazır vəziyyətdə olan sudan, kükrəyən dalğalardan və sakitliyin romantikasından, qəhrəmandan və satqından... bəhs edirdi. O, insan xislətini qütbləşdirməklə təqdim edirdi. Bu hardasa nağıl strukturunu xatırlatsa da, əslində nağıldan, sonu xoşbəxtliklə bitən əsərlərdən kəskin şəkildə fərqlənirdi. "Əcəl zəngi" romanının qəhrəmanları sadə xalqın içindən çıxmışlar və onlar bu dövrdə baş verən mürəkkəb siyasi hadisələrin mənasını o qədər də anlamırlar. Bu isə onları hər addımbaşı müşkül qarşısında qoyur. Onların təbiətindəki kobudluq, digər xarakter keyfiyyətləri başqalarına münasibətdə səhvə yol vermələrinə səbəb olur. Bu səbəbdən yol verdikləri kobudluq və zalımlıq özünü doğrultmur. Heminquey əsərin mərkəzinə konkret ideya qoysa da hər şeyi onun açılmasına tabe etmir, ən kiçik faktı, ən mənasız hərəkətləri də ekrana gətirir ki, baş verənlərin həqiqiliyinə şübhə yaranmasın.

Ernest Heminquey insan xarakterini yaradarkən, elə cizgilərdən və detallardan istifadə edir ki, burada adi bir detalın və əşyanın təsviri xarakterin açılmasında həm vasitə rolunu oynayır, həm də detalın özünün görünməyən tərəflərinin kəşfi və canlandırılması kimi səciyyələnir. Onun

hekayələrinə istinad edərək, dediyimiz fikrin əyani nümunəsini görə bilərik. Bu hekayələrdə qəhrəman da, epizod da, detal və hadisə də ayrı-ayrılıqda yox, birlikdə götürülərək təsvir edilir və nəticə etibarilə müəllifin izlədiyi mətləbin qaranlıq konturları işıq haləsinə bürünür.

Göründüyü kimi qüdrətli yazıçı Ernest Heminquey insanı bir varlıq olaraq milli və bəşəri dəyərlərin vəhdəti əsasında təqdim etməyə müvəffəq olmuşdur.

**İkinci fəslin "E.Heminquey yaradıcılığında insan və təbiət obrazı"** adlı üçüncü yarımfəsildə yazıçının yaratdığı bədii mətnin qurulmasında fəal komponentlərdən sayılan təbiət obrazı öyrənilir. Qeyd edilir ki, Ernest Heminqueyin bədii əsərlərində peyzaj dinamik formada qurulur. Heminqueyin yaradıcılığına məhz "istiqamətləndirici peyzaj" xasdır.

Heminqueyin əsərlərində təbiət obrazı ilə bağlı B.Qribanov qeyd edir ki, "xilasedici və əbədi güc funksiyası daşıyan təbiət obrazı demək olar Nik Adams haqqında bütün hekayələrdən qırmızı xətlə keçir. "Fiesta" romanında isə bu obraz simvol səviyyəsinə qədər yüksəlir, təbiət, Heminqueyin bir məktubda yazdığı kimi, "qəhrəmanla eyniləşir", romanda az qala qəhrəman statusu qazanır. Təkcə təbiət deyil, insanla təbiətin vəhdətdə olması, təbiətin əbədiliyi ideyası, insan həyatının faniliyi Heminqueyin bütün yaradıcılığından keçir. Bu obrazın müəyyən qəlpələrini "Hind məhəlləsi" hekayəsində görmək mümkündür. Bu hekayədə uşağı əhatə edən təbiət, təbii mühit - göl, təpələrin arxasından boylanan günəş, suda üzən balıq - hamısı birlikdə ölümsüzlüyə inam və əminlik hissi doğurur.

Heminqueyin qəhrəmanı ölüm ayağında "saman çöpündən yapışan" insan tipinə aiddir. Onun əxlaqi qayəsi məhz bu prinsipə əsaslanır - ölüm ayağında da ümid üzülmür. Son damla qanına və səbrinə qədər mübarizə lazımdır.

Heminquey bu ideyanı ilk dəfə olaraq "Bizim dövrümüzdə" adlı məcmuəyə daxil etdiyi "Məğlubedilməz" (1924) əsərində ifadə etmişdi. Bu hekayə qolundakı gücü sübut etməyə çalışan, ətrafdakı insanlara hələ də öküz öldürməyi bacaran matador olduğunu nəyin bahasına olsa da inandırmağa etməyə çalışan insandan bəhs edir. Hekayənin ideyası onun adında tam şəkildə ifadə edilib. Əsas mətləb budur ki, insan hətta məğlub olduqda da məğlubedilməzlik hissini qoruyub-saxlaya bilər.

Bütün bu hekayələrdə qəhrəman xalq təfəkküründən keçərək dərk edilir. Məhz mifoloji təfəkkür insana və sənətkara cəmiyyətin xırdalıqlarının fövqünə qalxmaqda kömək edir.

“Qoca və dəniz” povesti Ernest Heminqueyin 1952-ci ildə qələmə aldığı son əsərlərdəndir. Povestin fabulası Ernest Heminqueyin üslubu üçün səciyyəvidir. Qoca Santyaqo son nəfəsinə qədər müsaid olmayan qüvvələrlə döyüşür. Povest, məlum olduğu kimi, Kubada balıqçılarla uzun illərin söhbətlərindən sonra yaranmışdır. Qocanın ürəyi dənizin suyu kimi təmiz və şəffafdır.

Məlumdur ki, su kainatın əsas ünsürlərindən biridir. Ən müxtəlif mifologiyalarda su ilkin xaosa ekvivalent olmaqla yer kürəsinin ilkin vəziyyətini bildirir. Su–ümumi mayalanma və törəmənin mühiti və prinsipidir, insanın bütün həyat şirəsinin ekvivalenti deməkdir.

Beləliklə, Heminqueyin əsərlərində peyzaj bir sıra funksiyaları yerinə yetirir. Bunlardan ən əsası kökə, başlanğıca qayıdışdır. Müharibədən sonra özünü büsbütün itirmiş qəhrəmanın möhtacı olduğu elə budur. Bu qəhrəman harmoniya arzusundadır. Qəhrəman bu bütövlüyü təbiətin ağuşunda tapır. Ernest Heminquey təbiəti əsrarəngiz boyalarla rəsm edir, ona magik güc verir.

**Tədqiqatın üçüncü fəsli “Ernest Heminquey yaradıcılığında insanın mənəvi aləminin tədqiqi”** adlanır. **Üçüncü fəslin birinci yarımfəsildə “Ernest Heminquey yaradıcılığında insanın əxlaqi-mənəvi dəyərlərinə münasibət, “itirilmiş nəslin” əxlaq və mənəviyyat dərsləri” məsələləri öyrənilir.**

Ernest Heminqueyin nəsrində “sadə insanların” lirik xarakteri və ya obrazları nə üçün rəng qatışıqları olmadan sərt şəkildə, bütün gerçək və real cizgiləri ilə göz önünə gətirilir? Ernest Heminquey həqiqəti təqdim etməkdən çox hər bir əsərində onu axtarırdı. Çünki, onun həyat yolundan da məlum olduğu kimi, məhz bu məqsədlə o, döyüşdən-döyüşə, ölkədən-ölkəyə adlayır, dünyanın hansı bucağı olursa-olsun özü üçün burada baş verən hadisələrin məntiqini anlamağa çalışırdı. Ernest Heminqueyin yazdığı əsərlərə ilk növbədə məhz yuxarıda səslənən suallara cavab variantlarından biri kimi baxmaq lazımdır. Dünyada bu tipli yazıçılar çox deyil. Yəni, bir qayda olaraq “yazıçı anlayışı” nəyi yazmaq və onu necə təqdim etmək konteksti ilə doğulur. Bu baxımdan təhlillərimiz “Əlvida, silah”, “Fiesta”, “Olmaq, yaxud olmamaq” romanları, “Beşinci cərgə” pyesi və “Qoca və dəniz” povestinə əsaslanır. Ernest Heminquey yazıçı, könüllü əsgər idi. Nobel mükafatının laureatı olub və eyni zamanda adi bir insan həyatı yaşayıb. Onun yaratdığı xarakterlər avtobioqrafik səciyyə daşıyıb, lirik personajları Ernest Heminquey şəxsiyyətinin təcəssümü olmaqla müəllifin özü kimi adi insanlar olublar.

İtirilmiş nəslin nümayəndələri öz qəhrəmanlarını romantik boyalarla rəsm edirdilər: E.Heminquey, R.Oldinqton və E.M.Remark səngərlərdə yatdıqları zaman əldə etdikləri ideyaları mütləqləşdirir və bunu kapitalist dünyasının idealına qarşı qoyurdular. Onları satan, aldadan cəmiyyətdən üz çevirərək E.Heminquey, Oldinqton və Remark qəhrəmanları ilə birlikdə dünyanın bətnində kök salmış sadə həqiqətləri qəbul etməyə cəhd göstərirdilər. Ancaq bunun üçün ana təbiətin özü dərk edilməlidir. Cəbhəçilərin canlı təcrübəsi onları "sakitliyə" inanmamağa çağırırdı. Bu təcrübə yazıçını bədii ümumiləşdirmədə kəskin məqamları təsvir etməyə məcbur edirdi. Beləliklə, şəxsi təcrübə mütləqləşdirilirdi (Heminquey və onun qəhrəmanı). Oldinqtonun əsərlərində ellin dünyası, onun qəhrəmanları, kişilik, mərdlik, bir sözlə gözəllik idealı parlaq boyalarla təsvir edilirdi. E.M.Remark və onun qəhrəmanları "konkret xeyirxahlığa" inanır, "siyasi neytrallıq idealını" üstün tuturdular. İtirilmiş nəslin nümayəndələrinin müharibədən sonra yazdıqları ilk əsərlər açıq strukturlu əsərlər silsiləsini təşkil edir.

Bu baxımdan E.Heminqueyin son dövr yaradıcılığına aid əsərlərinin qəhrəmanlarını yazıçının 20-ci illərdə təcəssüm etdiyi "itmiş nəslin" qəhrəmanı ilə əlaqəli nəzərdən keçirmək zərurəti yaranır.

Ümumdünya ədəbi prosesi kontekstində 40-50-ci illərdə Heminqueyin qəhrəman kodeksində, yəni, XX əsrin birinci yarısında mövcud olan ədəbiyyat üçün səciyyəvi olan ekzistensialist dünyagörüşünə malik "itirilmiş nəslin" qəhrəman obrazında (Kamü və Sartrın qəhrəmanları) hansı dəyişikliklərin baş verməsini izləmək maraq doğurur. Məsələyə bu şəkildə yanaşdıqda "şüur axını" ədəbiyyatı ilə E.Heminqueyin lirik romanları arasında qabarıq fərqi nəzərdən qaçırmaq olmaz. Birincisi üçün tam şəkildə öz içinə qapılan və ətrafda baş verənlərə laqeyd olan fərdiyyətçi qəhrəman xarakterikdir. Lirik romanların qəhrəmanları isə gerçək aləmdə baş verən hadisələri emosional şəkildə qavrayır, bu qavrayış bir çox hallarda yaşadıqları dövrə xas olan ziddiyyətlərlə müşahidə edilir.

Ernest Heminqueyin lirik romanlarının qəhrəmanları müəllifin özü kimi müasirliyin konfliktlərinə açıqdırlar, bu ziddiyyətlərdən xəbərdardırlar və fəal şəkildə onların həlli ilə məşğuldurlar. Ernest Heminqueyin əsərlərində müxtəlif obrazların təhlilində burada parlaq şəkildə ifadə edilən tərcümeyi-hal cizgilərini unutmaq olmaz.

**Üçüncü fəslin ikinci yarımfəsli "Ernest Heminqueyin yaradıcılığında "kiçik insan" problemi, sosial-siyasi hadisələrin və mövcud ədəbi təcrübənin Ernest Heminqueyin yaradıcılığına təsiri"** adlanır.

Ernest Heminqueyin əsərlərində araşdırma obyekti onun müasiri olan, müəllifin özünə bənzəyən adi bir insandır. Ernest Heminquey öz nəsrində bu zamanın tarixi hadisələrinin mərkəzində dayanan "adi insan" obrazına böyük diqqət yetirir, bu obrazlara özünün cizgilərini bəxş edirdi. Ernest Heminqueyin nəsrində adi insanın xarakterik cizgiləri bir qayda olaraq az və ya çox dərəcədə lirizmlə aşılanır, çünki onlar müəllifin dünyasını və şəxsiyyətini əks etdirir. Ernest Heminqueyin ən yaxşı əsərləri onun həyatından bəhs edən əsərlərdir.

"Adi insan" obrazı ədəbiyyatın bütün tarixi boyu mövcud olmuşdur. Obraz sadəcə nəsildən nəslə dəyişib. Bununla belə, bəzi ümumi cizgilər mövcuddur ki, bütün bu insanları birləşdirir. Ernest Heminquey əsərlərini adi insanın müxtəlif obrazları ilə dəyişdirir. O, bu insanları çox böyük bir məhəbbətlə, xüsusi, fərqləndirici üsullarla təsvir edir.

**Üçüncü fəslin "Ernest Hemiquey və müharibələr" adlı son yarımfəsildə** Heminqueyin dövrünün tarixi hadisələri ilə sıx şəkildə bağlı olan coşqun və əfsanəvi bir ömür yaşaması vurğulanır. Heminqueyin "Əlvida, silah!" romanı (1929) hər şeydən əvvəl müharibənin doğurduğu əzab və dağıntıların, dəhşət və qorxunun tam təsvirini verən, müharibə əleyhinə yazılmış bir əsərdir. Məşəqqətlərdən bəhs edən bu romanı Heminquey bütövlükdə müharibənin insan həyatında törətdiyi fəlakətlərin təsvirinə və onların dərin mənasının açılmasına həsr edib.

Romanda hadisələr 1917-ci ildə İtalyan-Avstriya cəbhəsində cərəyan edir. Heminquey bu romanda insan həyatında ən müxtəlif hadisələrin, mahiyyət etibarı ilə bir-birinə zidd olan rəng və qoxuların, gerçək hadisə və yuxuların, yaxud yuxu kimi yozula bilən faktların qatışığını elə kombinasiyalarda təqdim edir ki, insanın dünyaya niyə, hansı amalla gəlməsi, nəyə görə mübarizə aparması, bəzən əqidəsi yolunda canını qurban verməyə hazır olması və bu sıradan olan digər baş sındıran suallar açılır, ən müxtəlif mənaların insan ömrünün mənası ilə kəsişməsi elə bir fon yaradır ki, bu kontekstdə müharibənin mənasızlığı, insan ləyaqətinə qəsd etməsi, ləyaqətsiz insanın isə heç nəyə yaramaması və bütün bunların kontekstində dünyanın dibinə qədər boşalması insanı sarsıdır. Fikrimizcə, romanın ilkin böyük mənası bundan ibarətdir.

Birinci dünya müharibəsi  XX əsrdə ilk qlobal faciəyə çevrildi. milyonlarla insanın həyatını söndürdü, on minlərlə insan şikəst oldu. Başqa bir ağrılı və dözülməz zərbə ondan ibarət idi ki, bu dəhşətli müharibə bütöv bir nəslin taleyini məhv etdi. Müharibənin insan taleyinə vurduğu sağalmaz yaranı ilkin proqressiv yazıçılar duyub əks etdirdilər. E.M.Remark və

E.Heminqueyin əsərlərində elə qəhrəmanlar var ki, fiziki cəhətdən heç bir zərbə almasalar da, müharibə onların ruhunu darmadağın edib.

Dissertasiyanın "**Nəticə**" hissəsində tədqiqatın əsas yekunları ümumiləşdirilir. Tədqiqatın ilkin və ola bilsin ki, əsas nəticə və yekunlarından biri yazıçının əsərlərində əksini tapan iradə yenilməzliyinə baxmayaraq, onun həyatın faciəsini aşılamaq inadıdır. E. Heminqueyə həsr edilən əksər tədqiqatlarda məhz "əvvəl-axır insana qalib gəlmək mümkün deyildir" qəbilindən aforizmlər səslənmiş və araşdırmalar məhz bu fraqment üzərində qurulmuşdur. Fikrimizcə, böyük Amerika yazıçısı Ernest Miller Heminqueyin əsas nəsr əsərlərinin pafosu heç də bundan ibarət deyildir. Onun nəsr əsərlərində insan faciəvi yöndən, özü də son dərəcə qabarıq şəkildə dərk edilir. Dənizçinin ölüm-dirim mübarizəsi, həyatını xilas etmək əzmi təqdim edilən sistemin olsa-olsa zahiri görüntüsüdür, daxildə, yəni Heminqueyin təqdim etdiyi poetik sistemin nüvəsində burada bütün atmosfer dərindən-dərinə faciə ilə aşılanıb. Heminquey nəsrində, doğrudan da, onun şəxsi ömrünün faktları geninə-boluna istifadə edilir. Ancaq bununla bərabər, burada bədii modelləşdirmə də mövcuddur, elə bir sistem ki, onunun içindəki faktlar yazıçının həyat faktları ilə müəyyən məqamda kəsişir və insanın bədii əsər çərçivəsinə sığan həyatının sonsuz mənaları aşkar edilir. Heminqueyin təqdim etdiyi sistemlə tanışlıq araşdırıcıya ən müxtəlif rakurslardan düşünmək imkanı verir. Əgər onun bədii nəsr nümunələrində yalnız yazıçının şəxsi xatirələri, ancaq başına gələn hadisələr təsvir edilsəydi, nə qədər maraqlı və cazibəli olmasına rəğmən bu qədər maraq doğura, illər uzunu həm oxucuların, həm də tədqiqatçıların diqqətini sürəkli şəkildə cəlb edə bilməzdi. Maraqlı cəhət şəxsi yaşantılarla bədii modelləşdirmənin kəsişməsi, onların məlum sistemin daxilində hansı mənaları və semantik yükü təqdim etməsidir.

Heminquey bütün hiss və düşüncələri ilə yaşadığı dövrün insanı idi, onun ziddiyyətləri ilə yaşayırdı, məhz bu cəhətləri əsərlərində əks etdirməyə çalışırdı. Belə ki, məsələn 20-ci illərdə Heminqueyin qələmə aldığı əsərlərdə qəhrəman birinci dünya müharibəsinin şərtləri içində yetişir (Nik Adam, Frederik Henri, Cek Barens). O, bu dünyanı absurd bir ideya kimi qavrayır, ictimai əxlaqa dərin şübhələrlə yanaşır və özünün mənəvi dəyərlərini ona qarşı qoyur. Heminqueyin qəhrəmanı fərdiyyətçidir, həyatda məhz ona məxsus olan yolu axtarır, bütün məqamlarda "taleyin acığına" hərəkət edir. Həyatda üzləşdiyi məğlubiyyət əsla iradəsini qırmır, əksinə özünü təsdiq üçün yeni imkan və stimul verir. Bu nöqtədə Heminquey poetikası J.P.Sartr, A.Kamü və K.Yaspersin poetik sistemi ilə səsləşir.

Dissertasiyanın əsas məzmun və müddəaları aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:

1. Dahi Heminquey aysberq yazıçıdır. //Naxçıvan Dövlət Universitetinin Xəbərləri. Naxçıvan: 2005, № 16, s.36-38
2. "E.Heminquey yaradıcılığında faşizmə nifrət" //Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Naxçıvan: 2007, № 1 (21), s.89-90
3. "Исследование и издании вопросы в творчестве Эрнеста Хемингуея в Азербайджане" //Вестник Московского государственного лингвистического Университета, Москва: 2012, №3 (639), с. 89-98
4. "Ernest Heminqueyin yaradıcılığında təbiət obrazı" //Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Bakı: 2012, №1, s.302-307
5. "Ernest Heminquey və müharibələr" //Bakı Dövlət Universiteti "Jurnalistikanın nəzəri konsepsiyaları və mətbuat təcrübəsi" I Beynəlxalq elmi-nəzəri konfransın materialları Bakı:2012, s.353-360
6. "Ernest Heminquey yaradıcılığında bəşəri dəyərlərin təsviri" //Bakı Slavyan Universitetinin Elmi Əsərləri, Bakı: 2012, № 1,s.96-101
7. "Ernest Heminquey yaradıcılığında insanın sosial fəaliyyətinin bədii inikası" Filologiya məsələləri, Elm və Təhsil Bakı: 2012, s.484-491
8. "Ernest Heminqueyin yaradıcılığında "kiçik insan" problemi; sosial-siyasi hadisələrin Ernest Heminqueyin yaradıcılığına təsiri" //Naxçıvan Dövlət Universitetinin Elmi Əsərlər, Naxçıvan: 2012, №2 (46), s.94-97

**Юсиф Аскер оглы Алиев**
**Художественного познания человека в творчестве Эрнеста Хемингуэя**

## Резюме

Диссертационная работа Юсифа Аскер оглы Алиева на тему «Художественного познания человека в творчестве Эрнеста Хемингуэя» состоит из введения, трех разделов, списка использованной литературы и заключения.

Во Введении диссертации обосновывается актуальность выбранной темы, определяется объект исследования и предмет диссертации, указываются ее цели и задачи в форме конкретных положений, разъясняется метод исследования, раскрывается научная новизна, говорится о теоретическом и практическом значении диссертационной работы. Отмечается, что изучение поэтики прозы Эрнеста Хемингуэя в целом обуславливается перебиранием результатов, достигнутых хемингуэйоведением, обладающим большой историей, и обобщением имеющейся практики в области художественного познания человека в лице этого писателя.

В первом разделе под заглавием «Вопросы исследования творчества Э.Хемингуэя» исследуется вопрос, с какой точки зрения изучалось творчество Э.Хемингуэя исследователями мира. В произведениях, посвященных Хемингуэю в русском, азербайджанском и мировом литературоведении, различные вопросы его прозы – сюжет, композиция, поэтика, стиль и другие фундаментальные вопросы стали объектом исследования. Обобщаются достижения в области издания и изучения произведений великого писателя в Азербайджане, начиная с 30-40 гг. прошлого века.

Во II разделе диссертации («Концепция человека в творчестве Э.Хемингуэя») исследуется вопрос концепции человека в творчестве Э.Хемингуэя, широко истолковывается художественное отображение социальной деятельности Человека, раскрывается социальная деятельность человека в текстах художественной прозы через художественный образ, тем самым выявляются различные концептуальные стороны мировоззрения писателя. На примере повести «Старик и Море», считающейся вершиной всех этих духовных поисков писателя, излагается его жизненная философия. В этом разделе также исследуются вопросы, охватываемые прозой

Э.Хемингуэя в глобальном аспекте. Изучается проблематика и поэтика американской литературы XX века на фоне концепции героя Стейнбека и Хемингуэя, отношения обоих к созданным ими героям. В названном разделе «образ природы» в тексте художественной прозы ставится как отдельная проблема, говорится об особенностях динамического построения пейзажа в этих художественных произведениях.

Последний – третий раздел исследования посвящен вопросам исследования духовного мира человека в творчестве Эрнеста Хемингуэя. В данном разделе отношение к нравственно-духовным ценностям человека в творчестве Эрнеста Хемингуэя исследуется на фоне уроков морали и нравственности «потерянного поколения», изучается вопрос отношения к нравственно-духовным ценностям человека в творчестве Эрнеста Хемингуэя. В этом разделе также исследуется проблема «маленького человека» в творчестве Эрнеста Хемингуэя; влияние социально-политических событий и существующего литературного опыта на творчество Эрнеста Хемингуэя, процесс художественной прозы и войны, и другие вопросы.

В «Заключении» диссертации обобщаются выводы, сделанные исследователем по теме.

**Yusif Aliyev Asker**

**Artistic knowledge of man in the works of Ernest Hemingway**

## Summary

The thesis work of Yusif Aliyev Asgar on "Artistic knowledge of man in the works of Ernest Hemingway" consists of an introduction, three sections, bibliography and a conclusion. In the introduction the actuality of the dissertation topic chosen is determined by the object and subject of dissertation research, indicate its goals and objectives in the form of specific provisions, explains the method of investigation revealed novelty, refers to the theoretical and practical significance of the thesis. It is noted that the study of poetic prose of Ernest Hemingway as a whole is caused by shuffling progress Hemingway having a great story, and a generalization of the existing practices in the art of human cognition in the face of this writer. In the first section, entitled "Issues of research creativity E. Hemingway" study the question, from what point of view of researchers studied the work of E. Hemingway in the world. In the works devoted to Hemingway Russian, Azerbaijani and world literary criticism, and various issues of his prose - the story, composition, poetics, style, and other fundamental issues have been the object of research. Summarizes the achievements in the field of publication and study the works of the great writer in Azerbaijan, from 30-40 years in the last century. In Section II of the thesis ("The concept of rights in the work of E. Hemingway") explores the concept of rights in the work of E. Hemingway, widely interpreted by the artistic display of social activities, social activities of man is revealed in the texts of fiction by an artistic image, thus identifies various conceptual outlook of the writer. On the example of the novel "The Old Man and the Sea", which is considered the top all the spiritual quest of the writer, describes his philosophy of life. This section also investigates matters covered by E. Hemingway prose in a global context. We study the problems and the Poetics of American literature of the twentieth century against the background of the concept of the hero of Hemingway and Steinbeck, the relationship established by them both to the characters. In the section called "the image of nature" in the text of fiction posed as a separate issue, according to the peculiarities of the dynamic construction of the landscape in these works of art. The last - the third section is devoted to research on the

study of the human mind in the works of Ernest Hemingway. In this section, relating to the moral and spiritual values of man in Ernest Hemingway's work examines the background to the lessons of morality and the "lost generation" studies the relationship to the moral and spiritual values of people in the work of Ernest Hemingway. This section also deals with the problem of the "little man" in the works of Ernest Hemingway, the impact of socio-political developments and the existing literature on the experience of work of Ernest Hemingway's fiction and the process of war and other issues. In the "Conclusion" summarizes the thesis findings of the researcher on the topic.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**ЮСИФ АСКАР ОГЛЫ АЛИЕВ**

# ХУДОЖЕСТВЕННОГО ПОЗНАНИЯ ЧЕЛОВЕКА В ТВОРЧЕСТВО ЭРНЕСТА ХЕМИНГУЭЯ

10.01.03 – Мировая литература (американская литература)

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по филологии

Нахчыван- 2013